*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 14 iyul 2018-ci il | № 53 (2269) | Qiyməti 25 qəpik

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Türkiyənin və Azərbaycanın birgə səyləri ilə bölgədə sülh yaranacaq

*Məlum olduğu kimi, Türkiyənin yeni seçilmiş Prezidenti Rəcəb Tayyib Ərdoğanın ilk rəsmi səfəri Azərbaycana olub. İyulun 10-da reallaşan səfər nəticəsində ölkə başçıları arasında Türkiyə-Azərbaycan münasibətlərinin müxtəlif aspektləri, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi, beynəlxalq və regional hadisələrin müzakirəsi aparılıb. Türkiyə Prezidenti səfər çərçivəsində Bakıda Şəhidlər xiyabanını və Türk Şəhidliyini ziyarət edib. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasında təkbətək, daha sonra geniş tərkibdə görüş keçirilib. Görüşlərdən sonra ölkə başçıları birgə mətbuat konfransı keçiriblər.*



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın prezident seçildikdən sonra Azərbaycana səfər etməsi Türkiyə-Azərbaycan münasibətlərinin bir millət iki dövlətin ortaq dəyərlərindən qaynaqlandığını möhkəm, sarsılmaz bir təməl üzərində inkişafının, Ankaranın xarici siyasətində Bakının tutduğu yerin önəminin bu strateji əməkdaşlığın yeni keyfiyyət mərhələsinə qədəm qoyduğunun təsdiqidir. Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevlə keçirdiyi görüşdə bir çox sahələrdə əməkdaşlıq məsələlərini müzakirə ediblər. Bundan əlavə, Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinin müzakirəsi də davam etdirilib. Ümumiyyətlə, Azərbaycanla Türkiyə arasında əməkdaşlığın genişlənməsi və dərinləşməsi hər iki dövlətin güclənməsinə, regionda sülhə və əmin-amanlığa xidmət edir, həm də bütövlükdə türk dünyası üçün yaxşı nümunədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev keçirilən birgə mətbuat konfransında Rəcəb Tayyib Ərdoğanın seçkilərdən sonra ilk rəsmi səfərini Azərbaycana etməsini xüsusi məmnunluqla qeyd edib: "Biz çox şadıq ki, Siz seçkilərdən sonra ilk rəsmi səfərinizi Azərbaycana edirsiniz. Dünən Türkiyədə Sizin andiçmə mərasiminiz keçirilmişdir və bu gün Siz Azərbaycanda rəsmi səfərdəsiniz. Bu, bir daha onu göstərir ki, Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı sarsılmazdır, əbədidir. Sizin səfəriniz bir daha Türkiyə-Azərbaycan qardaşlığının nümunəsidir, bir daha bizim birliyimizi göstərir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bəyanatında onu da vurğulayıb ki, bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir: "Biz bütün məsələlərdə bir yerdəyik, bütün beynəlxalq məsələlərdə bir-birimizi daim dəstəkləyirik, bir-birimizin yanındayıq. Türkiyə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərir. Dünya miqyasında bu məsələ ilə bağlı Azərbaycana ən böyük dəstək verən ölkə Türkiyədir.

Bildiyiniz kimi, uzun illərdir ki, torpaqlarımız Ermənistan tərəfindən işğal edilib. Bu işğal nəticəsində xalqımız etnik təmizləməyə məruz qalıb. Bu münaqişənin tezliklə həlli beynəlxalq hüquq normalarının bərpası demək olacaqdır. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul etmişdir. Orada açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri Azərbaycanın torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr icra edilməlidir, ölkəmizin ərazi bütövlüyü bərpa olunmalıdır.

Türkiyənin bu məsələ ilə bağlı mövqeyi beynəlxalq hüquq normalarına uyğundur və eyni zamanda, Türkiyə-Azərbaycan qardaşlığına, dostluğuna əsaslanır. Azərbaycan da öz növbəsində, bütün məsələlərdə daim Türkiyəni dəstəkləyir. Bizim birgə fəaliyyətimiz bundan sonra da davam etdiriləcəkdir".

Mətbuata açıqladığı bəyanatda ölkə Prezidenti İlham Əliyev birlikdə həyata keçirilən enerji layihələrinə toxunmaqla yanaşı, hər iki ölkənin birgə səylərinin nəinki ölkələrimiz üçün, bütün bölgə üçün və Avrasiya üçün böyük əhəmiyyət daşıdığını bildirib. "Türkiyə-Azərbaycan birliyi, dostluğu regional sabitlik üçün böyük fayda verir. Əminəm ki, Türkiyənin və Azərbaycanın birgə səyləri ilə bölgədə sülh yaranacaq. Türkiyənin hərbi potensialı çox güclüdür. Dünya miqyasında Türkiyə Ordusu ən güclü ordular sırasındadır. Hərbi sahədə bizim əməkdaşlığımız çox uğurla davam edir. Bu il hərbçilərimiz arasında yeddi hərbi təlim keçiriləcəkdir, onlardan üçü keçirilib. Azərbaycan Türkiyədən böyük sayda hərbi texnika alır. Ötən ay Azərbaycanda keçirilmiş hərbi paradda bu texnikanın bir hissəsi göstərilmişdir.

Bizim əlaqələrimiz çoxsaxəlidir. Əlaqələrin təməlində xalqlarımızın, dövlətlərimizin birliyi, ortaq maraqları dayanır. Biz dostuq, qardaşıq. Türkiyə Prezidentinin seçkilərdən sonra birinci səfərini Azərbaycana etməsi bunu bir daha göstərir".

Azərbaycan Prezidenti ilə yanaşı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın mətbuata verdiyi bəyanat da onu sübut edir ki, Türkiyənin Azərbaycanla əlaqələri yüksək strateji səviyyədədir. Hər iki ölkədə prezident seçilən dövlət başçısının birinci olaraq qardaş respublikaya getməsi ənənəvi hal alıb. Bu da iki ölkənin qardaşlıq münasibətlərinin əyani sübutudur. Türkiyə-Azərbaycan ikitərəfli əlaqələri bölgədə sabitlik və sülhün qurulmasına xidmət edir, eyni zamanda region üçün böyük əhəmiyyət daşıyır və regional sabitliyə böyük töhfə verir.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Brüsseldə NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşü keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev görüşdə iştirak edib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşüb.*

Görüşdən sonra "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanma mərasimi olub.

Dövlətimizin başçısı Avropa İttifaqının mənzil-qərargahına gəldi.

Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk birgə foto çəkdirdilər.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolu və bu yaxınlarda rəsmi açılışı olan TANAP layihəsinin bu məsələdə böyük əhəmiyyəti vurğulandı. Eyni zamanda, Azərbaycanın yerləşdiyi regiondakı vəziyyət, regional təhlükəsizlik və çağırışlar haqqında da fikir mübadiləsi aparıldı.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olundu. Prezident İlham Əliyev münaqişənin hazırkı vəziyyəti barədə məlumat verdi.

Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk Azərbaycanın dünyəvi və müasir cəmiyyət quruculuğu sahəsində müsbət təcrübəyə malik olduğunu qeyd etdi.

Söhbət zamanı Azərbaycanda insan haqları ilə bağlı vəziyyət, bu sahədə həyata keçiriləcək Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı barədə məsələlər müzakirə olundu.

* * *

İyulun 11-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin görüşü olub.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, Azərbaycanın Əfqanıstana humanitar sahədə göstərdiyi dəstək xüsusi vurğulandı.

Söhbət zamanı regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Azərbaycanın Əfqanıstanda sülhün bərqərar edilməsi istiqamətində xüsusi rolu qeyd edildi.

Görüşdə, həmçinin ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın perspektivləri müzakirə olundu.

* * *

İyulun 12-də Brüsseldə NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak edib.

Prezident İlham Əliyev Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirak etmək üçün NATO-nun yeni mənzil-qərargahına gəldi.

Dövlətimizin başçısı burada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Bakir İzetbeqoviç ilə görüşdü.

Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Bakir İzetbeqoviçi Türkiyənin NATO-dakı ofisinə çay süfrəsinə dəvət etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirak etdi.

Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə çıxış edərək dedi:

- Cənab baş katib, xanımlar və cənablar.

Azərbaycanla NATO arasında güclü tərəfdaşlıq əlaqələri regional təhlükəsizlik və sabitlik məsələlərində mühüm rol oynayır. 2002-ci ildən başlayaraq Azərbaycan sülhməramlıları NATO hərbçiləri ilə Əfqanıstanda çiyin-çiyinə xidmət edirlər. 2018-ci ilin yanvar ayından Azərbaycan Qətiyyətli Dəstək missiyasındakı hərbçilərinin sayını 30 faiz artıraraq 120 nəfərə çatdırıb.

Ötən il Azərbaycan "Asiyanın Qəlbi - İstanbul Prosesi"nə həmsədrlik, keçən ay isə Beynəlxalq Təmas Qrupunun toplantısına ev sahibliyi edib.

Ermənistanın təcavüzündən əziyyət çəkən və bu təcavüz nəticəsində beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi işğal olunmuş, bir milyon soydaşına qarşı məlum acınacaqlı etnik təmizləmə törədilmiş Azərbaycan işğalın və dağıntının iqtisadi və humanitar nəticələrini yaxşı anlayır.



Azərbaycan bir neçə dəfə Əfqanıstan Milli Ordusu üçün Etimad Fonduna maliyyə dəstəyi göstərib. Biz Azərbaycanda Əfqanıstan Ordusunun şəxsi heyəti üçün təlimlər təşkil edirik. Özündə 200-dən çox ictimai xidməti birləşdirən "ASAN xidmət" Əfqanıstanda tətbiq olunur.

Azərbaycan Qətiyyətli Dəstək missiyasına nəqliyyat və logistik dəstək də göstərir. Ötən ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi bu missiyaya tranzit dəstəyi göstərilməsinə böyük dərəcədə kömək edib.

Azərbaycan NATO və bu təşkilatın üzv dövlətləri tərəfindən ölkəmizin siyasi müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və Ermənistanla münaqişənin bu prinsiplərə əsaslanan həllinə verdiyi davamlı dəstəyi yüksək qiymətləndirir.

Azərbaycan Əfqanıstanın üzləşdiyi təhlükəsizlik təhdidlərinin aradan qaldırması, ölkədə sülh və inkişafın əldə edilməsi işinə köməyini bundan sonra da davam etdirəcək.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycanın Xarici İşlər və Müdafiə nazirləri ABŞ-dan olan həmkarları ilə görüşüblər

*İyulun 12-də NATO-nun Brüsseldə keçirilən Zirvə toplantısı çərçivəsində Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Müdafiə naziri Zakir Həsənov Amerika Birləşmiş Ştatlarının dövlət katibi Mayk Pompeo və Müdafiə naziri Ceyms Mattis ilə görüşüblər.*



Görüşdə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Uess Mitçel, Milli Təhlükəsizlik Şurasında baş direktor Fiona Hill, Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov və NATO yanında nümayəndəliyinin başçısı vəzifəsini icra edən Qaya Məmmədov iştirak ediblər.

Tərəflər Azərbaycan və ABŞ arasında tərəfdaşlığın səviyyəsindən məmnunluq ifadə ediblər. Nazir Elmar Məmmədyarov NATO-nun Brüssel Sammitinin Yekun Kommunikesində Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə təkrar ifadə olunan dəstəyin vacibliyini diqqətə çatdırıb.

Söhbət əsnasında regional məsələlərə dair fikir mübadiləsi aparılıb və ABŞ tərəfi NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək missiyasına və terrorizmə qarşı mübarizədə göstərdiyi dəstəyə görə Azərbaycana təşəkkür edib.

Elmar Məmmədyarov həmkarına iyulun 11-də ATƏT-in Minsk Qrupunun həmsədrlərinin iştirakı ilə Brüsseldə Ermənistan xarici işlər naziri ilə keçirdiyi görüş barədə məlumat verib.

Xarici İşlər naziri Elmar Məmmədyarov və Müdafiə naziri Zakir Həsənov ABŞ-dan olan həmkarlarını Azərbaycana səfərə dəvət ediblər və onlar dəvəti məmnuniyyətlə qəbul ediblər.

**AZƏRTAC**

*Ön xətdən reportaj*

# 100 ilin paradı neçə yüz illərin paradının başlanğıcıdır

*Düşmənlə üzbəüz mövqedə xidmət edən vətənpərvər oğullarımızla görüşə gedirik. Yolboyu rastlaşdığımız kənd əhalisinin isti münasibəti ilə havanın istiliyi həmahənglik təşkil edir, insanın könlünü oxşayır. Göyün ənginliklərində cövlan edən günəş ətrafa hakim kəsilib. Adama elə gəlir ki, günəş şüaları torpağı qızılı rəngə boyayıb. Qızıldan dəyərli olan torpaqlarımızı qoruyan igid oğullarımız isə bu gözəlliyə başqa rəng qatır.*



Ətrafda qəribə bir sakitçilik hökm sürür. Ərazidəki sakitçiliyi sadəcə güllə səsləri poza bilir. İşinin peşəkarı olan sürücü müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Faiq Nəcəfov yolboyu düşmən mövqelərini bizə göstərir və çirkin niyyətlərindən əl çəkməyən düşmənin bu ərazidə tez-tez mövqelərimizi atəşə tutduğunu, lakin vətənpərvər oğullarımızın onların cavabını lazımınca verdiyini söyləyir. "Ön xətdə uzun müddətdir ki, xidmət edirəm. Bu ərazilər mənim üçün doğmalaşıb. Mənfur düşmənimiz bayram günlərində daha da aktivləşir, təxribatlar törədir. Lakin postda xidmət aparan hərbi qulluqçularımız düşmənin atəş mövqelərini cavab atəşi ilə susdururlar".



Getdiyimiz yolun sərt döngələrdən ibarət olmasına baxmayaraq Faiq qısa müddətdə bizi posta çatdırır. Şəxsi heyətlə səngərdə görüşürük. Havanın istiliyi isə durmadan artır. Yerləşdiyi mürəkkəb coğrafi mövqe və çətin iqlim şəraiti əsgərlərimizin müqəddəs amalını yerinə yetirməsinə - torpaqlarının bütövlüyünü qorumasına heç bir çətinlik yaratmır.

Baş leytenant Emin Pirsaatov bizi qarşılayır. 2011-ci ildən zabit kimi ordu sıralarında xidmət edən baş leytenant E.Pirsaatov Azərbaycan Ordusunun 100 illiyi münasibətilə bütün hərbi qulluqçuları təbrik edir və ordumuzun hazırkı səviyyəsi barədə fikirlərini bizimlə bölüşür. "Əsası 100 il bundan əvvəl qoyulan ordunun zabiti olmaq mənim üçün əvəzolunmaz bir hissdir. Ordumuzun gücləndirilməsi ölkə rəhbərliyinin qarşıya qoyduğu prioritet məsələlərdəndir. Müdafiə Nazirliyinin rəhbərliyinin tez-tez ön xətdə yerləşən bölmələrə səfər etməsi hər bir hərbi qulluqçuda ruh yüksəkliyi yaradır. Müstəqilliyimizin dayağı olan ordumuz həm müasir silah arsenalına, həm də şəxsi heyətin döyüş hazırlığının səviyyəsinə görə dünyanın güclü orduları sırasındadır. Yüksək dövlət qayğısının nəticəsidir ki, ordumuz istər təminat, istərsə də təchizat baxımından durmadan inkişaf edir. Kursant olarkən, xidmətimi düşmənlə təmas xəttində keçirmək arzusunda olmuşam. Bu gün mən və tabeliyimdəki şəxsi heyət ordumuzun 100 illiyini məhz xidməti yerlərimizdə - düşmənlə təmas xəttində keçirdiyimiz üçün çox xoşbəxtik. Ordumuzun əsası qədim zamanlardan torpağına, millətinə bağlı olan gənclərdən təşkil olunub və bu gün də varislik nöqteyi-nəzərdən bu ənənələr davam edir. Vətəninə bağlı olan hər bir kəsin başlıca vəzifəsi Vətəninin uğurları üçün çalışmaqdır. Bizim hərbçi olaraq hamımızın tək arzusu var - torpaqlarımızın işğaldan azad olunması. Bakıda keçirilən hərbi parad da ordumuzun gücünü bir daha təsdiqlədi. 100 ilin paradı neçə yüz illərin paradının başlanğıcıdır."

Söhbət zamanı döyüş bölgəsində xidmət aparmağın özəlliklərindən bəhs edən zabit qayğıkeş və diqqətcil komandir olmağın xüsusiyyətlərinə də toxunur: "Ön xətdə xidmət aparan əsgərlərin komandiri olmaq mənim işimin məsuliyyətini daha da artırır. Hər zaman şəxsi heyətin döyüş, mənəvi-psixoloji hazırlığını yüksəkdə saxlamaq lazımdır. Tabeliyimdə olan əsgərlərin problemləri və qayğıları ilə maraqlanır, həlli üçün əlimdən gələni əsirgəmirəm. Çünki onlar ailələrindən çox uzaqda ən ümdə vəzifəni yerinə yetirir - Vətəni müdafiə edirlər. Məkrli niyyətlərindən əl çəkməyən düşmən hər dəfə təmas xəttində problemlər törətməyə çalışır. Lakin bu təzyiqlərin qarşısı hərbi qulluqçularımız tərəfindən qətiyyətlə alınır."

- Hər bir əsgərin uğuru onun komandiri üçün ikiqat uğurdur, - deyə baş leytenant Emin Pirsaatov sözünə davam edir. - Bölməmizin şəxsi heyəti təlim atış çalışmalarında yüksək nəticələr göstərir. Atışda yüksək nəticə göstərmiş hərbi qulluqçu ön xətdə düşmən tərəfindən ola biləcək hücumların qarşısını mərdliklə almaq iqtidarındadır. Düşmən ordusunun gücü bizim ordumuzun gücündən müqayisəolunmaz dərəcədə aşağı səviyyədədir. Ali Baş Komandanımız çıxışları zamanı Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasının tərəfdarı olduğumuzu bildirir, lakin danışıqların nəticə verməyəcəyi təqdirdə əzəli torpaqlarımızı müharibə yolu ilə qaytaracağımızı xüsusilə vurğulayır. Yurd-yuvalarından didərgin düşmüş məcburi köçkünlərimizin öz evlərinə qayıdacağı gün uzaqda deyil. Ali Baş Komandan İlham Əliyevin döyüş əmrinə hər an hazırıq. Hamı bilsin ki, bizə babalarımızdan əmanət qalan Vətən torpaqları Vətəninə canı və qanı ilə bağlı olan oğullar tərəfindən göz bəbəyi kimi qorunur.

Gizir Nizami Lətifzadə çox səmimi, qayğıkeş hərbi qulluqçularımızdandır. Gizir N.Lətifzadə şəxsi heyətin təminat və techizat sarıdan heç bir problemin olmadığını, əsgər yataqxanasında yaradılan şəraitin yüksək səviyyədə olduğunu qeyd edir: "Döyüş növbəsini təhvil vermiş əsgərlərin dincəlməsi üçün yataqxanalarımızda yaxşı şərait yaradılıb. Əsgərlərin asudə vaxtının səmərəli təşkili üçün istirahət güşələri var. Hər bir Azərbaycan gənci Vətəninin qəhrəman oğullarını tanımalı və onlar haqqında məlumatlı olmalıdır. Bunu nəzərə alaraq, dəhlizdə ümummilli lider Heydər Əliyevin və Ali Baş Komandanımızın müasir ordu quruculuğu fəaliyyətindən bəhs edən fotostendlər, şəhidlərimiz haqqında məlumat tabloları yerləşdirilib. Bir sözlə, xidmət etdiyimiz yerin coğrafi mövqeyinin və iqlim şəraitinin çətin olması bizim müqəddəs vəzifəmizi yerinə yetirməyə mane ola bilməz".

Əsgər Kərəm Əliyevlə söhbətləşirəm. Əsgərin hərbi vərdişlərə yaxından bələd olması onun silahı tutmasından aydın sezilir: "Gənc əsgər olarkən komandirlərimin öyrətdiyi dərsləri dərindən mənimsədim. Praktiki atış çalışmalarını poliqonlarda dəqiqliklə yerinə yetirirdim. Bu gün həmin silahla düşmənlə üzbəüz mövqelərdə torpaqlarımızı müdafiə edirəm. Silah döyüşdə sənin ən yaxın dostundur. Çünki sən torpaqları məhz həmin silahla müdafiə edirsən. Ona görə də mənə təhkim olunmuş silahımın təmizliyini həmişə diqqətdə saxlayır, sazlığını həmişə yoxlayıram", - deyə əsgər K.Əliyev bildirir.

Əsgər İlkin Quliyev qeyd edir ki, ordumuzun 100 illiyində hərbi xidmətdə olduğu üçün sevinclidir. "Azərbaycan Ordusunun 100 yaşını ordu sıralarında qeyd etmək mənim üçün əvəzolunmaz duyğudur. Ordumuz hər il hərbi gücünə güc qatmaqdadır. Arsenalımızda düşmənin strateji obyektlərini çox qısa müddətdə sıradan çıxarda biləcək, düşmən ordusunu ağır məğlubiyyətə uğrada biləcək silah və texnikalarımız var. Ermənistan ordusu regionun ən güclü ordusuna qarşı mübarizə aparmaq gücündə deyil. Mən və əsgər yoldaşlarımız işimizin məsuliyyətinin fərqindəyik. Hər birimizin bir tək arzusu var - düşmən tərəfindən işğal olunmuş tarixi ərazilərimizi azad etmək. O gün uzaqda deyil. İstər döyüş yolu, istərsə də sülh yolu ilə torpaqlarımız azad olunacaq".



Əslən Sabirabad rayonundan olan əsgər Ağalar Muradov "Ön xətdə Vətənini, xalqını müdafiə etməyin verdiyi qüruru heç nə əvəz edə bilməz", - deyir. "Uzun müddətdir ki, torpaqların keşiyində dayanıram. Düşmənlə təmas xəttində torpaqlarımızın müdafiəsində iştirak etmək mənim üçün fəxr ediləsi bir hadisədir. Hərbi xidmətə gəlməmişdən əvvəl, qonşuluğumuzda hərbi xidmətdən yenicə qayıdan yoldaşlarımla söhbətləşirdim. Cəbhə bölgəsində xidmət etmiş dostlarımın bir sözü vardı: "Cəbhə yoldaşlığı ən möhkəm yoldaşlıqdır". Halhazırda bunu daha dərindən başa düşürəm. Burada hamımız çox yaxın yoldaşlıq münasibəti qurmuşuq. Ordumuzun 100 illiyini hərbi mundirdə qeyd etmək mənə iftixar hissi bəxş edir. Burada hər bir silah yoldaşımızın bir amalı var: o da Vətəninə, xalqına şərəflə xidmət etmək, torpaqlarımızın bütövlüyünü qorumaq".

Tovuz rayonundan hərbi xidmətə çağırılan əsgər Nurlan Mustafayev ömrü bir əsrə bərabər olan Azərbaycan Ordusunun yaranması günü münasibətilə bütün silahdaşlarını təbrik etdi. "Bu gün təkcə hərbi mundir daşıyan əsgər, zabit heyətinin deyil ümumi Azərbaycan xalqının bayramıdır. Çünki ordu xalqın, xalq ordunun inanc və güvənc yeridir. Uğurlu aprel döyüşləri zamanı Ordumuz gücünün cüzi hissəsindən istifadə edərək qısa müddətdə çox böyük tarix yazdı. Mühüm əhəmiyyətə malik ərazilər düşməndən təmizləndi. Həmin ərəfələrdə xalqımızın ordumuza mənəvi dəstəyi çox yüksək səviyyədə idi. Mən də həmin ərəfələrdə hərbi forma daşıyan bir kəs görən kimi qürur hissi keçirirdim. Və özümün əsgər olacağım günün intizarındaydım. Bu gün mən və cəbhə yoldaşlarım müasir Azərbaycan Ordusunun əsgəriyik. Dünyanın ən qüdrətli orduları sırasında olan müasir ordumuzun əsgəri olaraq, ön xətdə xidmət edən əsgəri olaraq böyük fəxr hissi keçiririk".

**Leytenant
Fuad CƏFƏROV,
"Azərbaycan Ordusu",
fotolar
Coşqun CƏFƏROVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# "Dövlətimizin, ordu rəhbərliyinin hərtərəfli qayğısı sayəsində döyüş və mənəvi-psixoloji hazırlıqda yüksək nailiyyətlər qazanılıb"

## Hərbi hissələrin şəxsi heyətlə iş üzrə zabitləri və psixoloqları ilə təlim-metodiki toplantı keçirildi



*Ordunun döyüş hazırlığı ilə bir sırada şəxsi heyətin mənəvi-psixoloji hazırlığının səviyyəsinin daha da yüksəldilməsi istiqamətində gərəkli tədbirlər həyata keçirilir. Bu baxımdan hərbi hissələrin şəxsi heyətlə iş üzrə zabitlərinin və psixoloqlarının xidməti mühüm əhəmiyyətə malikdir. Mənəvi-psixoloji hazırlıq dönməz proses olduğundan onların fəaliyyəti məhz Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi tərəfindən istiqamətləndirilir, qabaqcıl təcrübələr araşdırılır, öyrənilir və yayılır, mövcud çatışmazlıqların hansı üsul və metodlarla aradan qaldırılması yolları təhlil edilir. Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq keçirilən "Hərbi hissələrin şəxsi heyətlə iş üzrə zabitləri və psixoloqları ilə təlim-metodiki toplantı" da belə tədbirlərdəndir.*

Tədbirdə çıxış edən Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev Azərbaycan Ordusunun yaranmasının 100 illik yubileyindən söz açaraq bu münasibətlə keçirilən silsilə tədbirlərin şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəlməsində rolunu vurğulayıb, Müdafiə nazirinin bu sahədə tapşırıqlarını tədbir iştirakçılarının diqqətinə çatdırıb, həmçinin şəxsi heyətlə iş üzrə zabitlər və psixoloqlarla plana uyğun tədbirlərin keçirilməsinin vacibliyindən danışıb və bu sahədə xidmət edən mütəxəssislərin təcrübələrinin artırılmasının əhəmiyyətini xüsusilə qeyd edib.

Müdafiə nazirinin müavini bildirib ki, məhz 2016-cı ilin aprel ayında Ağdərə, Füzuli, Cəbrayıl istiqamətlərində və cari ilin may ayında Naxçıvanda həyata keçirilən əks-həmlə əməliyyatlarında qazanılan uğurlar Ali Baş Komandanın diqqət və qayğısı ilə orduda həyata keçirilən kompleks islahatların nəticəsidir.

General-leytenant Kərim Vəliyev şəxsi heyətin döyüş əzminin, qələbə ruhunun, mənəvi-psixoloji hazırlığın döyüş hazırlığıyla tamamlandığını diqqətə çatdıraraq, bu vacib amilin həyata keçirilməsində hərbi hissələrin şəxsi heyətlə iş üzrə zabitlərinin və psixoloqlarının xidmətinin ordu quruculuğu prosesində əhəmiyyətini qeyd etdi. Ordu quruculuğu dövlət üçün prioritetdir. Deməli, ordumuzun bütün hərbi qulluqçuları bu prosesdə iştirak edirlər. Ordu quruculuğu dövlətin xarici siyasətinin reallaşdırılmasına istiqamətlənib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qətiyyətlə bildirib: "Azərbaycan dövləti, Azərbaycan xalqı Azərbaycanda ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəkdir". Bu qətiyyəti ordumuz reallaşdıracaq, torpaqlarımızı işğaldan azad edəcəkdir. İyunda Bakıda keçirilən hərbi parad da ordumuzun gücünü nümayiş etdirdi. 2016-cı ilin aprel döyüşləri, 2018-ci ilin mayında Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun nəyə qadir olduğunu təsdiqlədi.

Şəxsi heyətin döyüş ruhunun, qələbə əzminin daha da yüksəldilməsi həm də bu zabitlərin hərbi xidmətindən, vəzifə borcunu yerinə yetirmə səviyyəsindən, mövcud iş üsul və metodlarını təkmilləşdirmə bacarığından, yeni metodlardan istifadə məharətindən asılıdır.

Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq keçirilən kütləvi vətənpərvərlik tədbirləri şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində əhəmiyyətli vasitələrdən olsa da, yetərli deyil. Nazir müavini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etdiyini, bu tarixin də, Azərbaycan Ordusunun 100 illiyinin də bütün hərbi hissə, birlik və birləşmələrdə, Əlahiddə Orduda böyük coşqu ilə qeyd olunduğunu bildirdi. Onu da qeyd etdi ki, bu istiqamətdə həyata keçirilən tədbirlər mahiyyəti etibarilə xalqımızın tarixinin hər bir hərbi qulluqçuya yenidən, daha əhatəli, daha sayğılarla çatdırılmasını təmin etdi ki, bu da şəxsi heyətin mənəvi zənginliyində əhəmiyyətlidir: "Tarixi bilmək, öyrənmək azdır, onlarla qürur duymağı bacarmalısan. Bütün tədbirlər məhz buna yönəldilməlidir. Onda mənəvi-psixoloji hazırlığın səviyyəsinin yüksəldilməsi daha dinamik olacaq" - bu tezis toplantıda iştirak edən zabitlərin və psixoloqların hərbi xidmətinə, fəaliyyətinə əsaslı təsir göstərəcək.



Azərbaycan Ordusunun şəxsi heyəti yüksək döyüş ruhuna, qələbə əzminə malikdir. Böyük Qələbəni Ali Baş Komandanın sərkərdəliyiylə bu əzm, bu ruh qazanacaqdır. İctimaiyyət buna inanır. Şəxsi heyətin döyüş əzminin, qələbə ruhunun daha da yüksəldilməsi zərurətini bildirən general-leytenant Kərim Vəliyev onu da qeyd etdi ki, bu istiqamətdə bilavasitə məsuliyyət daşıyan zabitlərin daha geniş erudisiyaya, biliyə, təhlil aparma qabiliyyətinə malik olması olduqca əhəmiyyətlidir. Bu toplantı, müəyyən mənada, təcrübənin təhlilinə, ümumiləşdirilməsinə, yayılmasına xidmət edir. Belə toplantılarda fəallıq olduqca zəruridir.



Çağırışçı hərbi xidmətə başlayır. Onların hər biri müxtəlif xarakterə, müxtəlif dünyaduyumuna malik olur. Gənc əsgəri öyrənmək olduqca vacib məsələdir. Gənc əsgərlə aparılan ilkin söhbətlər də əhəmiyyətlidir və belə söhbətləri onların hərbi xidmətində ilkin vətənpərvərlik dərsi hesab etmək olar. General-leytenant Kərim Vəliyev bu amilə də böyük önəm verərək qeyd etdi ki, əsgər hərbi hissənin psixoloquna inanmalıdır. İnam tərbiyə prosesinin, bu sıradan vətənpərvərlik tərbiyəsinin mühüm tərkib hissələrindən biridir və hərbi hissənin psixoloqları söhbətləri hər əsgərin xarakterinə müvafiq qurmalıdır. Onda belə söhbətlər mənəvi-psixoloji hazırlığın obyekti olacaqdır. Əks-təqdirdə heç bir səmərə verməyəcəkdir.

Hərbi intizamın möhkəmləndirilməsinin ordunun döyüş qabiliyyətinə təsir edən əsas amillərdən olduğunu vurğulayan Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev qeyd etdi ki, dövlətimizin və xalqımızın hərtərəfli qayğısı ilə əhatə olunan Azərbaycan Ordusu ötən bir neçə ildə döyüş və mənəvi-psixoloji hazırlıq cəhətdən yetərli nailiyyətlər qazanıb. Hərbi qulluqçuların sosial şəraiti əvvəlki dövrlərlə müqayisədə xeyli yaxşılaşıb, bütün bölgələrdə yeni hərbi şəhərciklər inşa edilib və müasir hərbi hissələr istifadəyə verilib. Ölkə başçısının bizim qarşımızda qoyduğu ən böyük tələbi əsgərlərin döyüşə mənəvi-psixoloji cəhətdən tam hazırlanmasına qadir olmaqdır.

Mənəvi-psixoloji hazırlığın səviyyəsinin yüksəldilməsində ictimaiyyətin də rolu böyükdür. Bu baxımdan Şəxsi Heyət Baş İdarəsi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin həyata keçirdiyi tədbirlər əhəmiyyətlidir. Belə tədbirlərdə iştirak edən hərbi qulluqçular ictimaiyyətin orduya münasibətini görür, ehtiramını hiss edir, torpaqlarımızın işğaldan azad edilməsini bu münasibətin, ehtiramın ödənci bilir.

Çıxış edən zabitlər görülmüş işlərdən danışdılar. General-mayor Rasim Əliyevin tövsiyəsi ilə onlar görülmüş işlərin mənəvi-psixoloji hazırlığın yüksəldilməsində hansı əhəmiyyətə malik olduğunu vurğulayaraq tədbirin keçirilmə mexanizminə aydınlıq gətirdi.

Məhz general-mayor Rasim Əliyevin tövsiyəsi əsasında toplantı fikir mübadiləsi kimi davam etdirildi ki, bu da tədbirin əhəmiyyətini nəzərəçarpacaq dərəcədə yüksəltdi.

General-mayor Rasim Əliyevin tövsiyələri böyük maraqla dinlənildi:

- Hərbçilərin başlıca vətənpərvərliyi hər əsgərə sevgilərlə baxmaqdır. Unutmayaq ki, vətənpərvərlik insanlara sevgidən başlayır.

Müdafiə Nazirliyi Hərbi Hüquq İdarəsinin rəisi polkovnik Rauf Kişiyev toplantıda ehtimal edilən hərbi cinayətləri yaradan səbəblərdən, onların aradan qaldırılması yollarından, profilaktik tədbirlərdən danışdı.

Təhsil Nazirliyinin, Hərbi Prokurorluğun, Gənclər və İdman Nazirliyinin, "Loqos" Psixoloji və Nitq İnkişafı Mərkəzinin, Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin nümayəndələri də iştirak etdilər. Onların çıxışları, müəyyən mənada, ordu ilə cəmiyyət arasında münasibətlərin daha da yaxşılaşdırılması metodlarını, yeniyetmələrin hərbi xidmətə vətənpərvərlik ruhunu formalaşdırmaqla yola salınmasını, cinayət və neqativ halların aradan qaldırılması üsullarını, hərbi intizamın möhkəmləndirilməsi metodlarını, şəxsi heyətin hüquqi maarifləndirilməsinin təşkilinin zəruriliyini, ... əhatələdi. Nazirliklər arasında konkret məsələləri əhatələyən memorandum imzalanmasının əhəmiyyətini qeyd edən general-mayor Rasim Əliyev bildirdi ki, ictimaiyyət ordu quruculuğunda bu baxımdan iştirak etməlidir...

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani şəxsi heyətin mənəvi-psixoloji hazırlığında marşların əhəmiyyətindən danışdı, məzmunlu marşların aşıladağı duyğuları tarixilik baxımından təhlil etdi və çıxışını sözlərinə yazılmış "Lələtəpə fatehləri", "Günnüt zəfəri", "Vətən əsgəri" kliplərini təqdim etməklə tamamladı. Abdulla Qurbani onu da bildirdi ki, bu kliplər hərbi hissələrə də çatdırılacaqdır.

Mənəvi-Psixoloji Hazırlıq Və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi genaral-mayor Rasim Əliyev xidmətində fərqlənənlərə fəxri fərman təqdim etdi.

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Hərbi Tibb Fakültəsində təlim-metodiki toplantı keçirildi

*Hərbi Tibb Fakültəsində Müdafiə Nazirliyi Tibb Baş İdarəsi Silahlı Qüvvələrin tibbi hərbi hissə və müəssisələrinin komandirləri (rəisləri), birliklərin tibb xidməti rəisləri ilə 2018-ci tədris ilinin birinci dövrünün yekunlarına həsr olunmuş təlim-metodiki toplantı keçirildi.*




Toplanışda Tibb Baş İdarəsinin nümayəndələri, tibbi hərbi hissə və müəssisələrin komandirləri (rəisləri), birliklərin tibb xidməti rəisləri iştirak etdilər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Təlim-metodiki toplantını Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev açaraq bildirdi ki, 2018-ci ilin hazırlıq planında qış tədris dövrü üçün şəxsi heyətin tibbi təminatına aid nəzərdə tutulmuş tapşırıqlar bütövlükdə yerinə yetirilib. "Tibbi hərbi hissə və müəssisələrdə keçirilən taktiki-xüsusi təlimlərdə, qərargah məşqlərində, elmi-praktik konfranslarda diqqət onların, eləcə də bütövlükdə ordu tibb xidmətinin döyüş hazırlığına yönəlib. Şəxsi heyət qarşıya qoyulan vəzifələrin öhdəsindən gəlib, tibbi vərdişlərini təkmilləşdirib. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə xəstələnmə səviyyəsi nəzərəçarpacaq dərəcədə azalıb. Tibb hərbi hissə və müəssisələrin müasir diaqnostik cihazlarla komplektləşdirilməsi xəstələrin tam müayinə olunmasına imkan yaradır. Xidmətə yeni gələn əsgərlərin hərbi hissələrdə xəstələnmə səviyyəsinin azaldılmasına diqqət artırılıb, şəxsi heyət arasında müvafiq əks-epidemik tədbirlər görülüb".

İdarə rəisi qeyd etdi ki, son vaxtlar cəbhə xəttində artan gərginlik, düşmən tərəfindən atəşkəsin tez-tez pozulması hərbi qulluqçular və mülki əhali arasında odlu silah yaralanmaları riskini də artırır. "Yaralanmış hərbi qulluqçuların tibb müəssisələrinə çatdırılma vaxtının minimuma endirilməsi, təxirəsalınmaz tibbi yardımın vaxtında və düzgün göstərilməsi, cərrahi müdaxilələrin aparılması onların tez bir zamanda sağalaraq öz xidmət yerlərinə qayıtması üçün əsas şərtdir. Bu məqsədlə mövcud imkanlardan, o cümlədən tibbi aviasiyanın, nəqliyyat aviasiyasının imkanlarından, mobil qospitallardan maksimum istifadə olunur. Ağır yaralanmış və ya xəstələnmiş hərbi qulluqçuların konsultasiyası üçün Səhiyyə Nazirliyi ilə çox sıx əlaqələr qurmuşuq. Respublikanın baş tibb mütəxəssisləri günün istənilən vaxtında hospitallara dəvət olunurlar".

General-mayor Natiq Əliyev tibbi hərbi hissə və müəssisələrinin komandirlərinə (rəislərinə), birliklərin tibb xidməti rəislərinə xitabən bildirdi ki, şəxsi heyətin həyat fəaliyyəti şəraitinə, yerləşməsinə, su təchizatının, qidalanmanın, hamam-camaşırxana xidmətinin təşkilinə, hərbi qulluqçuların sağlam, ekoloji təmiz mühitdə yaşamasına və ətraf mühitin mühafizəsinə tibbi nəzarəti gücləndirin. "Çirklənməyə səbəb olan mənbələrin ləğvi, yerüstü təbii sərvətlərdən səmərəli və düzgün istifadə edilməsi, hərbi mülkiyyətin və şəxsi heyətin ekoloji təhlükə yaradan ekstremal amillərdən qorunması məqsədi ilə hərbi hissə və müəssisələrdə mütəmadi



olaraq sanitar-epidemioloji nəzarət və ekoloji minitorinqlər aparasız".

Sonda idarə rəisi qeyd etdi ki, Müdafiə Nazirliyinin tibb xidməti qoşunların tibbi təminatı məsələsində mümkün tədbirlərin düzgün və vaxtında yerinə yetirilməsinə çalışır, həmişə olduğu kimi, bundan sonra da Müdafiə nazirinin tapşırıqlarının yerinə yetirilməsinə nail olacaqdır.

Tibb xidməti polkovniki Firudin Nəbiyev 2018-ci tədris ilinin birinci dövründə müalicə-profilaktika işinin vəziyyəti haqqında geniş məlumat verdi.

Təlim-metodiki toplantıda baş mütəxəssislər baş cərrah tibb xidməti polkovniki Mütəllim Həsənov və baş terapevt tibb xidməti polkovniki Samil Qasımov, müalicə tibbi profilaktika şöbəsinin rəisi tibb xidməti polkovniki Azad Məmmədov 2018-ci tədris ilinin birinci dövründə Silahlı Qüvvələrdə nozologiyalar üzrə xəstəliklərin diaqnostikası, müalicəsi, yol verilən qüsurların aradan qaldırılması və aparılan profilaktik tədbirlərin nəticələri haqqında çıxış etdilər. Birlik və birləşmələrin tibb xidməti rəisləri 2018-ci tədris ilinin birinci dövründə tibb xidmətinin fəaliyyəti haqqında danışdılar.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu",
fotolar
leytenant
A.ABDURAHMANOVUNDUR**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***13 iyul 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və 60 millimetrlik minaatanlardan da (2 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini 95 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Ayqeovit kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Cəvahirli, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Nümunəvi xidmət mənəvi borcdur"

"N" hərbi hissəsinin düşmənlə təmas xəttində yerləşən bölməsində nümunəvi xidməti ilə seçilən Vətən keşikçilərindən birini - gizir Elşən Məmmədovu tanımağın qürurunu yaşayıram. Bütün hərbçilərimiz kimi, o da vəzifəsinin öhdəsindən uğurla gəlir, xidmətini düzgün təşkil edir, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanır. Əslən Sabirabad rayonundan olan gizir Elşən Məmmədovun uşaqlığı Qarabağ savaşının ağrılı-acılı günlərinə təsadüf edib. O vaxtlardan ürəyində hərbçi olmaq istəyi yaransa da, bu istək əsgəri xidmətdə olarkən reallaşıb. "Hələ orta məktəbdə oxuyarkən hərb peşəsi ilə maraqlanırdım, lakin dəqiq qərarımı verməmişdim. Hərbi xidmətə çağırıldım. Ön xətt bölmələrinin birində xidmət etdim. Xidmətim dövründə hərb peşəsinin müqəddəsliyini daha yaxşı anladım. Həmçinin komandirlərimin davranışları, bizimlə rəftarı, mənəvi-əxlaqi keyfiyyətləri, Vətənə bağlılıqları bu peşəyə olan sevgimi daha da artırdı. Hərbi xidmətimi başa vurmağa az qalmış gizir hazırlığı kursuna getmək üçün müraciət etdim və bununla da şərəfli yolda ilk addımlarımı atdım", - gizir E.Məmmədov dedi.



Elşənin vətənpərvərliyinin, hərb peşəsinə olan sevgisinin özündən balaca qardaşına da təsirsiz ötüşmədiyini və qardaşının da ön xətt bölmələrindən birində xidmət etdiyini öyrənirəm. Bir ailədən iki oğulun hərbçi olması, Vətənin keşiyində dayanması, elə, obaya, torpağa olan sevginin təzahürüdür. Müxtəlif hərbi hissələrdə şəxsi heyətlə həmsöhbət olarkən, belə sevindirici hala dəfələrlə rast gəlmişəm. Bu bir daha sübut edir ki, gəncliyimiz vətənpərvərlik tərbiyəsində böyüyür və cəmiyyətimizdə hərb sənətinə rəğbət olduqca yüksəkdir. Ordu-cəmiyyət arasında sıx bağlar var, xalq ordusuna güvənir və ordu xalqına arxalanır.

Elşən xidmətinin təşkilindən, üzərinə düşən vəzifələrdən də söz açdı.

- Üzərimə düşən vəzifənin müqəddəsliyini və məsuliyyətini yaxşı başa düşürəm. Bu vəzifələri həm də mənəvi borc bilirəm. Hamımız bir amal altında birləşmişik: düşmən qarşısında keçilməz sədd quraq və onları ata-baba yurdumuzdan qovmağa hər an hazır olaq. Bunun üçün də hər birimiz uğurla xidmət edir, vəzifələrimizin öhdəsindən layiqincə gəlirik. Qarşıdakı mövqeləri daim müşahidədə saxlayır, düşmən atəşkəsi pozanda və ya hər hansı bir təxribata əl atmağa cəhd edəndə vaxtında qarşısını alırıq. Bütün təminatlarımız da qaydasındadır. Ölkə rəhbərliyi uğurlu xidmətimiz üçün hər cür şərait yaradıb. Belə diqqət və qayğı hər birimizə yüksək döyüş ruhu aşılayır, xidməti düzgün təşkil etməyimizə zəmin yaradır.

Gizir Elşən Məmmədov ailəlidir, iki oğul atasıdır. Oğlanlarının da bu şərəfli peşənin sahibi olmasını arzu edir. "Peşə seçimi elə mühüm məsələdir ki, hər bir gənc onu öz istəyinə uyğun seçməlidir. Lakin bir ata kimi oğlumu hərbi formada, Vətənin müdafiəçiləri arasında görməkdən qürurlanardım", - Elşən dedi.

Azərbaycan Ordusunun əsl gücü belə mərd oğullarında - seçdiyi peşəyə ürəkdən bağlı olan, Vətənə xidməti mənəvi borc bilib, nümunəvi xidmət edən Elşənlərində, Vətən uğrunda ölümsüzləşən Mübarizlərində, Samidlərində, Turallarındadır... Belə igidlərin xidmət etdiyi şanlı ordumuz hər zaman bizi zəfər bayramları ilə sevindirəcək.

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu",
foto
Coşqun CƏFƏROVUNDUR**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**Mövzu:** *Dağlıq Qarabağ münaqişəsi, tarixi faktlar, nəticələr. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı aparılan mübarizədə döyüşçülərimizin göstərdikləri qəhrəmanlıq nümunələri.*

*Qrup rəhbəri bu mövzunun şərhi zamanı hərbi hissənin döyüş yolu, döyüşlərdə qəhrəmanlıq göstərmiş hərbi qulluqçuları haqqında materiallar toplayıb öyrənməli, dərsin gedişində həmin məlumatlardan istifadə etməyə hazır olmalı, eləcə də dərsin keçirilməsinə hərbi hissədə xidmət edən müharibə iştirakçılarının nümayəndələrini cəlb etməlidir.*

**Suallar:**

**1. 1991-1993-cü illərdə Azərbaycan Ordusunun formalaşması tarixi.**

**2. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdəki qəhrəmanlıq nümunələri və bu döyüşlərin tarixi əhəmiyyəti.**

*1991-1993-cü illərdə Azərbaycan Ordusunun yaranması və formalaşması tarixi*

XX əsrin sonlarında ölkədə siyasi hakimiyyətin böhranlı hala düşməsi və müttəfiq respublikalarda milli-azadlıq hərəkatının genişlənməsi Azərbaycanda Müdafiə Nazirliyinin bərpası üçün real imkanlar açdı. 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının Ali Soveti "Milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərar qəbul etdi. Həmin qərarın əsasında respublika Prezidentinin 5 sentyabr 1991-ci il tarixli fərmanına əsasən, Azərbaycanda Müdafiə Nazirliyi təşkil edildi və milli ordunun yaradılmasına başlandı. 1991-ci il oktyabrın 9-da isə Respublika Ali Soveti tərəfindən ordu quruculuğunun hüquqi bazası olan "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanun qəbul edildi.

Lakin bir tərəfdən Azərbaycan daxilində hərbi-siyasi vəziyyətin mürəkkəb olması, hakimiyyətdə olan qüvvələrin ordu quruculuğu sahəsində səmərəli siyasət izləyə bilməməsi, bir tərəfdən də ictimai-siyasi hərəkatların ordu daxilində qarışıqlıq yaratmaq cəhdləri, 6 ay ərzində Müdafiə naziri vəzifəsinə 4 dəfə təyinat aparılması həm Müdafiə Nazirliyinin, həm də Azərbaycan Ordusunun formalaşmasına dağıdıcı təsir göstərdi.

1993-cü ilin ortalarına kimi davam edən belə bir şəraitdə ordu quruculuğu vahid komandanlıq və bir mərkəzdən idarəolunma prinsipindən tamamilə məhrum edilmişdi. Çünki bu dövrdə dövlətə rəhbərlik edənlər öz şəxsi mənafelərinə xidmət edir və fərdi iddialarını həyata keçirirdilər. Elə bir vəziyyət yaranmışdı ki, Azərbaycan Ordusu işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı müharibə aparmalı olduğu halda, daha çox özünü qoruyub saxlamaq uğrunda mübarizə aparırdı. Ordu siyasiləşmiş, hakimiyyət uğrunda mübarizə alətinə çevrilmişdi. Bu səhvlərin nəticəsi tez bir zamanda özünü göstərdi. Şuşa və Laçın işğal edildi, Dağlıq Qarabağla Ermənistan arasında strateji "dəhliz" açıldı və Azərbaycanın neçə-neçə rayonunun sonrakı işğalı üçün zəmin yaradıldı.

Azərbaycanda Müdafiə Nazirliyinin və ordunun real şəkildə formalaşdırılması ulu öndər Heydər Əliyevin 1993-cü il noyabrın 2-də radio və televiziya ilə xalqa müraciətindən sonra başladı. Ordu və Müdafiə Nazirliyi qeyri-sağlam qüvvələrdən təmizləndi, orduya yeni qüvvələr cəlb edildi, ordu quruculuğunda köklü dəyişikliklər həyata keçirildi. Nəticədə qısa müddət ərzində ordu yenidən quruldu, təşkilatlandı və Azərbaycanın müstəqilliyinin müdafiəsində dayanmağa qadir olan bir qüvvəyə çevrildi.

Ümummilli lider Heydər Əliyevin ordu quruculuğunun bu mərhələsində apardığı işlərin hərbi-siyasi nəticəsi olaraq ordu daxilində dərinləşməkdə olan böhranın qarşısı alındı və bu sahədə keyfiyyət dəyişikliyi yarandı.

Dövlət Müdafiə Şurasının ilk iclasında cinayətkarlığa, Vətən qarşısında öz müqəddəs borcunu yerinə yetirməkdən boyun qaçıran şəxslərə qarşı barışmaz mübarizə aparılacağının bəyan edilməsi, çağırış və səfərbərlik işinin şəraitin tələblərinə uyğun qurulması, fərarilərə, hərbi xidmətdən yayınanlara qarşı ciddi tədbirlər tətbiq olunması istiqamətində atılan qəti addımlar Azərbaycan Ordusunun döyüş hazırlığının yüksəlməşinə səbəb oldu.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan Ordusuna göstərdiyi diqqət və qayğının nəticəsində vahid komandanlıq prinsipi bərqərar edildi, ordunun maddi-texniki təminatı əvvəlki illərdən fərqli olaraq əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, hərbi hissə və birləşmələrin maddi-texniki, tibbi və digər vasitələrlə təmin edilməsi təşkil olundu, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Azərbaycan Ordusuna tələb olunan silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin Azərbaycan Respublikasının sənaye müəssisələrində istehsal edilməsi ölkə iqtisadiyyatının inkişafına da təkan verdi. Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi.

1993-cü il dekabrın 10-da Beyləqan istiqamətində hücuma keçən Ermənistan silahlı qüvvələri ilk dəfə ordumuzun mütəşəkkil müqaviməti ilə qarşılaşdı. Dekabrın sonlarında Goranboy, Tərtər və Ağdam istiqamətlərində düşmənin hücumlarının qarşısı alındı, onun xeyli canlı qüvvəsi və texnikası məhv edildi. Füzuli-Beyləqan istiqamətində əks-hücuma keçən qoşunlarımız işğal olunmuş torpaqlarımızın bir hissəsini azad edərək düşmənin bu istiqamətdə yerləşən hərbi qruplaşmasını darmadağın etdilər. Belə bir şəraitdə ermənilər danışıqlar stolu arxasına gələrək 1994-cü il mayın 12-də atəşkəs haqqında sənədə qol çəkməyə məcbur oldular və bununla da Azərbaycan Ordusunun yenidən qurulmasına şərait yarandı.

*Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdəki qəhrəmanlıq nümunələri və bu döyüşlərin tarixi əhəmiyyəti*

1991-1993-cü ilin ortalarına qədər Azərbaycanın ordu quruculuğunda buraxılan səhvlərə baxmayaraq, 1993-cü ilin dekabr - 1994-cü ilin yanvar-may aylarında Azərbaycan Ordusunun döyüşlərdə qazandığı uğurlar bir daha sübut etdi ki, vahid dövlət və ordu quruculuğu sahəsində dövlətin apardığı siyasət əsaslandırılmış və ardıcıl olarsa, yüksək nailiyyətlər əldə etmək olar.

Ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə igidliklə vuruşmuş "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüş polkovnik-leytenant Murad Mirzəyev, mayor Rasim İbrahimov, mayor Samid İmanov, gizir Mübariz İbrahimov, çavuş Etibar İsmayılov, "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuş əsgər Şamil Cəbrayılov və yüzlərlə digər Azərbaycan vətəndaşı döyüş meydanlarında əsl qəhrəmanlıq göstərmişdi.

Mayor Rasim İbrahimov Füzuli istiqamətində döyüşən taborlardan birinin komandiri idi. O, 1992-ci il iyunun 28-də döyüş zamanı bir neçə əsgəri ilə düşmən mühasirəsinə düşən döyüşçülərimiz sayca özlərindən dəfələrlə çox olan düşmənə qarşı son qüllələrinədək vuruşaraq onlarla ermənini məhv etdilər. Bu qeyri-bərabər döyüşdə tək qaldığını görən ermənilər, Rasimin təslim olacağını güman etdikləri halda o "Azərbaycan zabiti əsir düşmür" sözləri ilə sonuncu qumbarasını partladaraq həm özü həlak olmuş, həm də bir neçə düşmən əsgərini məhv etmişdi.

Çavuş Etibar İsmayılov 1994-cü il yanvarın 4-də Xocavənd rayonunun "Nərgiztəpə" yüksəkliyi uğrunda gedən döyüşdə şəxsi igidlik göstərərək düşmən səngərinə birinci daxil oldu və əsgərlərimizin irəliləməsi üçün şərait yaratdı. Geri çəkilən düşmən yeni qüvvə toplayaraq tankların köməyi ilə əks-hücuma keçdi və döyüşçülərimizin mühasirəyə düşmək təhlükəsi yarandı. Düşmən tankının səngərə yaxınlaşdığını görən Etibar axırıncı tankəleyhinə qumbara ilə düşmən tankının altına atılaraq tankı məhv etməklə öz yoldaşlarını mühasirədən qurtardı.

Əsgər Şamil Cəbrayılov 1993-cü ilin axırında hərbi xidmətə çağırılmışdır. Qısa bir müddətdə öz silahından bacarıqla istifadə etməyi öyrənən Şamil dekabrın 13-də zirehli texnikanın dəstəyi ilə hücuma keçən düşmənlə döyüşdə soyuqqanlıqla ermənilərin 2 tankını məhv etmişdir.

19 iyun 2010-cu il tarixində gecə saat 23:30 radələrində gizir Mübariz İbrahimov təkbaşına bir kilometrlik minalanmış sahəni keçir. Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini birinci həmlədə məhv edir. Sonra isə düşmənin öz silahlarını özünə qarşı istifadə edərək 5 saat onlarla təkbətək döyüşür. Düşməni ağır itkilərə məruz qoyur, onların zəif cinahlarını üzə çıxarır. Azərbaycan döyüşçüsü səhər saatlarında qeyri-bərabər döyüşdə qəhrəmancasına həlak olur.

Polkovnik-leytenant Murad Mirzəyev 2016-cı ildəki aprel döyüşlərində ermənilərin təxribatının qarşısının alınmasında misilsiz rəşadət göstərib. Vətənin cəsur, qeyrətli oğlu komandiri olduğu xüsusi təyinatlı qrupla birlikdə yüzlərlə ermənini Talış kəndi ətrafında məhv edərək, qeyri-bərabər döyüşdə tutduğu mövqeyi bir addım belə tərk etməyib. Aprelin 3-dən 4-nə keçən gecə ağır yaralanan polkovnik-leytenant Mirzəyev son gülləsinə və son damla qanına qədər düşmənlə mübarizə apararaq, qəhrəmancasına şəhid olub.

Mayor Samid İmanov 2016-cı ilin aprelin əvvəllərində sonuncu dəfə döyüşə qatılıb. Azərbaycan-Ermənistan təmas xəttində 24 il fasilədən sonra başlayan amansız döyüşlərdə Samid İmanov Tərtər rayonunun Talış kəndi istiqamətində düşmənlə döyüşə girib. Aprelin 3-dən 4-nə ötən gecə döyüş zamanı mayor İmanov ayağından və çiynindən yaralanıb. Əsgərlər onu döyüş meydanından çıxartmaq istəsələr də, Samid İmanov bununla razılaşmayıb və onun əvəzinə yaralı gizirinin çıxarılmasını əmr edib. Əsgərlər giziri çıxardıqdan sonra yenidən döyüş meydanına qayıtsalar da, erməni tərəfə əsir düşməmək üçün yerini dəyişən mayor Samid İmanovu tapmayıblar.

Vətən uğrunda döyüşlərdə belə qəhrəmanlıqlar göstərən zabit, gizir və əsgərlərimiz çoxdur. Onların qəhrəmanlıqları dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib və öz qəhrəmanlıqları ilə özlərini əbədiləşdiriblər. Ordumuz məhz həmin qəhrəmanlıq nümunələri əsasında formalaşır, qurulur, böyüyür, artıq bu gün Azərbaycanın dövlət müstəqilliyini, ölkəmizin hüdudlarını, ərazisini qoruya bilən qüdrətli bir orduya çevrilibdir.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ordu quruculuğu məsələlərini öz diqqət mərkəzində saxlayır və öz çıxışlarından birində demişdir: "Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır".

Hazırda Silahlı Qüvvələr üçün müxtəlif kateqoriyalardan olan hərbi kadrların hazırlanması Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasında, ali hərbi məktəblərdə, zabit heyətinin təkmilləşdirmə kurslarında, hərbi tibb fakültəsində və gizir hazırlığı kurslarında həyata keçirilir. Prezident İlham Əliyevin 27 fevral 2004-cü il tarixli sərəncamı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, Azərbaycan Ordusunun hərbi kadr hazırlığı sistemini təkmilləşdirmək və ordunun peşəkar zabit kadrlarına olan tələbatının ödənilməsi işini yaxşılaşdırmaq məqsədilə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında Heydər Əliyev adına Hərbi Lisey yaradılmışdır.

Bu gün səmərəli hərbi təhsil sistemi yaradılmış, hərbi kadr və mütəxəssislərin hazırlıq proqramları, hərbi təhsilin pillələri və onları həyata keçirən hərbi tədris müəssisələrinin fəaliyyət istiqamətləri müəyyən edilmişdir.

Hazırda təlim mərkəzlərində dünyanın ən qabaqcıl, müasir ordularının döyüş və mənəvi-psixoloji hazırlıq üsullarından istifadə edilir. Bu istiqamətdə bir çox böyük dövlətlərin Azərbaycanla hərbi əməkdaşlıq sahəsində imzaladığı müqavilələr xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Ordusu NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan bütün tədbirlərdə, təlimlərdə fəal iştirak edərək, dünya dövlətlərinin ordu quruculuğu sahəsində qabaqcıl təcrübələrə yiyələnir.

Regionun xüsusiyyətləri, cəbhəboyu zonadakı şərait və vəziyyət nəzərə alınmaqla, o cümlədən düşmən üzərində daim hərbi üstünlüyü saxlamaq məqsədilə silahlanmaya inkişaf etmiş müxtəlif ölkələrdə istehsal olunan yeni, müasir və keyfiyyətli döyüş texnikası, eləcə də digər hərbi təyinatlı məhsullar daxil edilir.

Müxtəlif ölkələrdən müasir tipli döyüş təyyarələri, döyüş və hərbi nəqliyyat helikopterləri, artilleriya qurğuları, zirehli texnika, rabitə vasitələri, pilotsuz uçuş aparatları alınır. Eyni zamanda, ordumuz Müdafiə Sənayesi Nazirliyinin müəssisələri tərəfindən istehsal edilən hərbi təyinatlı məhsullarla da təchiz olunur.

Rusiya, Belarus, Ukrayna kimi tərəfdaşlarımızla yanaşı, qardaş Türkiyə, o cümlədən İran, Pakistan, İsrail, Cənubi Afrika Respublikası və digər inkişaf etmiş dövlətlərlə qarşılıqlı əməkdaşlıqda hərbi imkanlarımızı genişləndiririk.

Ordumuzun arsenalında olan əksər döyüş texnikası, silah və sursatın Rusiya istehsalı olduğunu nəzərə alaraq, iki ölkənin müdafiə qurumları nümayəndələrinin birgə işçi qrupları daim qarşılıqlı fəaliyyət göstərir. Silahlanmaya yeni daxil edilən silah və texnikanın öyrənilməsi və düzgün istismarını təmin etmək məqsədilə kadrların hazırlığına xüsusi diqqət yetirilir, təşkil edilən kurslarda hərbi qulluqçularımız müvafiq təhsil alır və öz bacarıqlarını təkmilləşdirirlər.

Son illər ərzində hərbi potensialımız xeyli dərəcə artaraq Ermənistan ilə Azərbaycan arasında hərbi balans bizim xeyrimizə əhəmiyyətli dərəcədə dəyişib.

Məhz 2016-cı ilin aprelində Ağdərə, Füzuli, Cəbrayıl istiqamətlərində və cari ilin mayında Naxçıvanda həyata keçirilən əks-həmlə əməliyyatlarında qazanılan uğurlar Ali Baş Komandanın diqqət və qayğısı ilə orduda həyata keçirilən kompleks islahatlar nəticəsində mümkün olub. Hər iki tarixi məqam Azərbaycan Ordusunun döyüş hazırlığı, ruh yüksəkliyi, mənəvi-psixoloji durumu və peşəkarlıq baxımından Ermənistan ordusundan qat-qat üstün olduğunu əyani şəkildə sübut etdi.

İyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi ilə əlaqədar Azadlıq meydanında hərbi parad keçirilib. Hərbi paradda Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4000 nəfərədək şəxsi heyəti iştirak edib.

Təntənəli mərasimdə 240-dan çox hərbi texnika, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar, eləcə də hərbi gəmi və katerlər nümayiş olunub.

Paradda, həmçinin Türkiyə Respublikası, Pakistan İslam Respublikası, Belarus Respublikası, Bəhreyn Krallığı, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İran İslam Respublikası, İsrail, Qazaxıstan Respublikası, Özbəkistan Respublikası, Rusiya Federasiyası, Səudiyyə Ərəbistanı Krallığı və Ukraynadan olan 100-dək nümayəndə iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə belə ifadə edib: "Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq. Son illər ərzində maddi-texniki bazanın möhkəmdirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan Ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik. Azərbaycan müharibə şəraitində yaşayır və belə olan halda ilk növbədə ordu quruculuğuna böyük diqqət göstərilməlidir".

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

*Hər bir təşəbbüs mahiyyəti etibarilə vətəndaşlıq deməkdir. Son dövrlərdə belə təşəbbüslər istər əhatəliyi, istərsə də məzmunu ilə diqqəti çəkir. Müharibə şəraitində yeniyetmələrin, məktəblilərin ordumuza sevgisi təqdirəlayiqdir. Respublikamızda həyata keçirilən layihələrdən biri "Əsgərə məktub"dur. Ayrı-ayrı məktəblərin şagirdləri tanımadıqları əsgərlərə məktublar yazır, onlara arzu və istəklərini bildirirlər. Arzuların, istəklərin məzmunu xalqın arzusudur, istəyidir: torpaqlarımız işğaldan azad edilsin. Hər məktub bir ürəyin diqtəsidir, hər məktub bir vətəndaşın ordumuza, ordumuzun əsgərinə səmimi müraciətidir. Bu müraciət ordu-ictimaiyyət münasibəti kimi qəbul olunmalıdır. Müxtəlif siniflərdə oxuyan şagirdlərin yazdığı məktublar təsdiqləyir ki, onlar Vətəni, ordumuzu sevir. Bu sevgi vətənpərvərlikdir. Məktubların bəzisi rus dilində yazılıb. Rus şöbəsində oxuyan şagirdlərin yazdığı məktublar da Azərbaycan şöbəsində oxuyan şagirdlərin yazdığı məktubların məzmunu ilə səsləşir. "Əsgərə məktub" layihəsi yeniyetmələrin vətənpərvərlik ruhunun formalaşması baxımından olduqca dəyərli layihədir və bu layihənin davamlı olacağına inanırıq.*

**"Azərbaycan Ordusu"**

# Əsgərə məktub





Əsgər döyüş bölgəsindən yenicə qayıtmışdı. O çox yorğun idi. Çünki atəşkəs pozulmuşdu. Düşmən cavab atəşi ilə susdurulmuşdu. Əsgərlərimizin səyi nəticəsində bir neçə yüksəklik və kənd düşməndən azad olunmuşdu. Əsgər yorğun halda çarpayıya uzanmışdı. Bu zaman növbətçi əsgər ona bir məktub verdi. Əsgər fikirləşdi ki, evdəkilərlə dünən danışıb, görəsən, bu məktub kimdəndir? O, məktubu açdı. Məktub tanımadığı məktəblidən idi:

Salam əsgər! Necəsən? Mən V sinifdə oxuyuram. Bu məktubda demək istəyirəm ki, sizin kimi əsgərlərlə fəxr edirik. Biz rahat yaşamağımız üçün sizə borcluyuq. İnanırıq ki, işğal altında olan torpaqlarımızı düşməndən azad edəcəksiz. Şəhidlərimizin qanı yerdə qalmayacaq.

**Surxay Nəbiyev,**
**145 saylı tam orta məktəbin V sinif şagirdi**

Salam əziz əsgər qardaşım, necəsən?

Bu məktubu simvolik olaraq "sən" deyə müraciətlə yazıram, əslində isə, bir nəfərin simasında bütün əsgərlərə şamil edərək yazıram. 14 yaşım var. Gəncə şəhərində yaşayıram. Düzdür, heç vaxt bizim şəhərdə güllə səsi eşitməmişəm, Tovuz rayonuna qonaq gedəndə eşitmişəm və o an orada yaşayan insanların, uşaqların hansı hissləri yaşadıqlarını təsəvvür etdim. Siz əsgərlərin sayəsində mən o gecəni rahat yatdım. Vətənimin igid oğlanları olan sizlərə görə bu gün biz rahat şəraitdə məktəbə gedir, qayğısız böyüyürük. Yağışlı günlərdə, qarda, isti havalarda bizim üçün keşik çəkirsiz. Hər cür şəraitdə keşiyimizi çəkdiyinizə görə sizə minnətdarıq. Mən də gələcəyin əsgəriyəm, mən də sizlərdən biri olacam və fəxrlə Azərbaycanımı qoruyacam. Sizin kimi qorxusuz olacam, şəhidlərin qanını yerdə qoymayacaq bir igid olacam. Anam hər dəfə əsgər görəndə "Allah sizləri qorusun" deyir, sonra da mənə baxıb deyir ki, mən də əsgər anası olacam. Əziz əsgər qardaşım, ümid edirəm ki, gün gələcək, mən də sənin kimi bu cür şərəfli sözlərə layiq bir əsgər olacam və mənə də məktub yazacaqlar.

Mən də sizinlə fəxr edirəm, yazılmaqla bitməyəcək düşüncələrim, arzularım var sizə, amma hər birini deməyə sözlər yetməz. Sizlərlə görüşmək ümidi ilə salamat qalın, əziz əsgərlər!

**Nicat Hümbətov,**
**Gəncə şəhəri 30 saylı tam orta məktəbin VII sinif şagirdi**

Salam, Azərbaycan əsgəri! Sən xalqımızın ən layiqli övladısan. Xalq sənə inanır, səni qoruyur. Biz inanırıq ki, sən torpaqlarımızın mənfur ermənilərdən azad edilməsi yolunda axıradək əzmlə vuruşacaqsan. Bunu aprel döyüşləri bir daha sübuta yetirdi. Cocuq Mərcanlıda ucalan yeni binalar düşmənin gözünü qorxutdu. O bildi ki, bu xalq inadından dönməyəcək, axıradək vuruşacaq. Ali Baş Komandan İlham Əliyevin bir sözü məni daha da qürurlandırır: "Aprel zəfəri kitablara salınmalıdır." Bayrağımızı Xocalıda, Xankəndidə və işğal altında inləyən digər torpaqlarımızda sancmağımıza az vaxt qalıb.

Mənim əsgər qardaşım! Sən arxayın ol ki, sən tək deyilsən, sən yüzlərlə, minlərləsən. Şəhidlərimizin qanı yerdə qalmayacaq. O günə az qalır.

Bu gün qələmlə dediyim sözlərimi, sabah silahlımla deyəcəm. Mən bütün varlığımla buna əminəm. Sağ ol, qardaşım!

**Tərtər rayon 6 saylı tam orta məktəbin VII sinif şagirdləri**

Salam, əsgər qardaşım.

Bu məktubu sənə tam rahat və arxayın məktəb partası arxasından yazıram. Bu rahatlığın, arxayınlığın səbəbkarı sizlərsiniz. Bizlər əsgərlərimizin qorxmazlığının, cəsurluğunun, mətinliyinin sayəsində heç bir tələş, qorxu duymadan, güvən duyğusuyla təhsil alır, yaşayırıq.

Sizlər bəzən soyuq, şaxtalı, bəzən də qızmar istidə səngərlərdə Vətən sevgisi, torpaq məhəbbətilə mətin dayanırsınız.

Əmim İlqar Məmmədov şəhid olub. Onun Vətənə, torpağa, millətə sevgisilə qürur duyuram. Zamanı gəldiyində sizlər kimi Vətən qarşısında müqəddəs borcumu verəcəyim günün həsrətilə yaşayıram.

Bu gün mən sizlərə yalnız rahat gecələrimizə, sevincli gündüzlərimizə görə deyil, həm də müstəqilliyimizi dünyaya car çəkən üçrəngli bayrağımızı daim yüksəklərdə dalğalandırdığınıza görə də minnətdaram. Düşmən bağrına sancılan ən mükəmməl silah sizin cəsarətinizdi, Vətən sevginizdi. Mən sizlərin bu təmənnasız fədakarlığı qarşısında ehtiramla baş əyirəm.

**Elçin Məmmədov,**
**Binəqədi rayonu 298 saylı tam orta məktəbin VIII sinif şagirdi**

Salam əsgər qardaşım.

Necəsən? Əminəm ki, əlasan! Vətənin, ailəsinin keşiyində duran insan necə olmalıdır.

Bilirəm, çətinliklərin də olur. Vətən naminə hamısına dözürsən. Sən də bilirsən ki, Vətəni qorumaq çətin, ən əsası da şərəflidir.

Soyuq, isti, qar, yağış səni qətiyyən yormur. Düşünürsənmi ki, yüz milliyonlarla insanın duaları hər saat, hər dəqiqə, hər saniyə səninlədir. Xalqımız səmimi qəlbdən inanır ki, siz əsgər qardaşlarımız Qarabağı, bütün torpaqlarımızı geri qaytaracaqsınız!

Bu gün torpağı qoru ki, sabah bu torpağı gələcək nəsillərə qiymətli bir əmanət kimi ötürə biləsən. Əsgər qardaşım, mən də sənin bir bacın.

Ailəndən qətiyyən nigaran qalma. Sən Vətəni, ailəni, bizi qoruyursan. Biz sizinlə fəxr edirik.

Biz sizinlə qürur duyuruq. Biz sizə güvənir, inanırıq.

Sağ ol.

*"Bayraqları bayraq*
*yapan üstündəki qandır,*
*Torpaq uğrunda ölən*
*varsa, Vətəndir".*

**Aysel Əmirova,**
**Gəncə şəhəri 2 saylı tam orta məktəbin VIII sinif şagirdi**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə axtarışda olan təhlükəli PKK terrorçusu yaralı halda ələ keçirilib



Türkiyə Hərbi Hava Qüvvələrinin qırıcılarının Şırnak vilayətinin Beytüşşebap rayonunda zərərsizləşdirdiyi terrorçulardan biri PKK terror təşkilatına məxsus axtarışda olan şəxsdir.

Terror aktı hazırladıqları halda pilotsuz aparatlar tərəfindən təsbit edilərək bombalanaraq zərərsizləşdirilən terrorçulardan ikisi ölü, biri yaralı halda ələ keçirilib. Araşdırma zamanı müəyyən olunub ki, yaralı terrorçu "Mehmet Goyi" ləqəbli Kadri Bayramdır. O, bir sıra cinayətlərdə iştirak etdiyi üçün axtarışda olub.

Antiterror əməliyyatı aparılan ərazidə terrorçulara məxsus silah-sursat və digər ləvazimatlar ələ keçirilib.

## İranın Hərbi Hava Qüvvələrinə məxsus təyyarə qəzaya uğrayıb



İranın Hərbi Hava Qüvvələrinə məxsus F-4 tipli təyyarə Çabahar bölgəsində qəzaya uğrayıb.

Havaya qalxan təyyarənin mühərrikləri qəflətən dayanıb. Pilotlar qəza vəziyyətinin yaranması haqqında mərkəzə məlumat verərək paraşütlə tullanıblar. Qəzanın səbəbi kimi texniki nasazlıq göstərilir.

Xatırladaq ki, ötən ay İranın Hərbi Hava Qüvvələrinə məxsus F-7 tipli təyyarə də İsfahan yaxınlığında qəzaya uğramışdı.

## Misir hərbçiləri Qahirə aeroportu yaxınlığında partlayışın mümkün səbəbini açıqlayıblar



Qahirə aeroportu yaxınlığında yanacaq dolu çən havanın hədsiz isti olması səbəbindən partlayıb.

Bu fikri Misir ordusunun rəsmi nümayəndəsi Tamer Rifai KİV-lər üçün açıqlamasında söyləyib. "Havanın temperaturunun yüksəlməsi nəticəsində "Heliopolis" neft şirkətinin çənlərindən birində partlayış baş verib", - deyə ordunun KİV üçün bəyanatında bildirilir.

Bundan əvvəl Misirin Mülki Aviasiya Nazirliyi partlayışın Qahirə aeroportundan kənarda baş verdiyini və aeroportun işinə təsir etmədiyini bildirib. Partlayışın səbəb olduğu yanğın söndürülüb.

## Silahlı toqquşma nəticəsində üç İran sərhədçisi həlak olub



İranın cənub-şərqində sərhədçilərlə silahlı qruplaşma arasında toqquşma baş verib. Silahlı toqquşma nəticəsində 3 sərhədçi həlak olub.

Bu barədə məlumat verən İranın Sistan və Beluçistan valisinin təhlükəsizlik məsələləri üzrə müavini Məhəmməd Hadi Mərəşi bildirib ki, terror qruplaşması qaçaqmalçılıq yolu ilə İrana silah-sursat keçirməyə cəhd edib. Bu barədə məlumat alan Səravan sərhəd zastavasının əsgərləri dərhal əməliyyat həyata keçirərək silah qaçaqmalçılığının qarşısını alıblar. Terrorçular sərhədçilər tərəfindən yaxalanacaqlarını başa düşərək silahlı müqavimət göstəriblər. Lakin sərhədçilər terrorçulara cavab verərək qaçaqmal olan silah-sursatı müsadirə edib qaçaqmalçıları məhv ediblər. Silahlı toqquşma zamanı 3 sərhədçi şəhid olub. Terrorçular İrana 10 mina, 11 "Kalaşnikov" avtomatı, 1 raket əleyhinə RPG qurğusu, çox sayda əl qumbarası keçirməyə cəhd ediblər.

İran mətbuatı məlumat verir ki, son vaxtlar İrana qarşı törədilən belə təxribatların sayı artıb. Məqsəd isə İranda sabitliyi pozmaqdır. Lakin İranın xüsusi xidmət orqanları və silahlı qüvvələri bu kimi təxribatların qarşısını bundan sonra da qətiyyətlə alacaq.

**AZƏRTAC-ın materialları əsasında**

# "Yeməklər dadlı və ləzzətlidir"

*Hərbi hissəyə gəlişimiz nahar fasiləsinə təsadüf etdiyindən ilk olaraq əsgər yeməkxanasına baş çəkirik. Nahar edən hərbçiləri narahat etmədən onların qidalarına göz gəzdirir və aşpazlarla birgə şəxsi heyətin gündəlik qida normasında istifadə edilən məhsullara baxırıq. Şahidi oluruq ki, bu hərbi hissədə də yeməklərin bişirilməsi prosesinə mülki vətəndaşlar cəlb olunub. Ətrafın, masa üzərində düzülən qab-qacağın təmizliyi, aşpazların gigiyenik qaydalara uyğun olaraq hərəkət etməsi diqqətimizdən yayınmır.*



İlk həmsöhbətim baş aşpaz, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Afaq Məmmədova bildirdi ki, şəxsi heyətin günün nizam qaydasına uyğun olaraq xidmətinin təmin olunması bu və ya digər formada onlardan da asılıdır: "Əvvəllər məişət işlərini əsgərlər özləri görürdülər. Bu da onları hərbi xidmətdən ayırır, şəxsi heyətin hərbi sirləri dərindən mənimsəməsinə təsir göstərirdi. Artıq neçə illərdir ki, məişət işlərinin görülməsinə, o cümlədən yeməklərin bişirilməsi prosesinə xanımların cəlb olunması şəxsi heyətimizin formalaşmasına və torpaqlarımızın etibarlı qorumasına öz töhfəsini verir. Nəticədə Azərbaycan əsgəri öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir, torpaqlarımızı etibarlı müdafiə edir".

Aşpaz müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Nisə Yusubova isə bildirdi ki, əsgər yeməkxanasında şəxsi heyətin yüksək kalorili qida ilə təminatı üçün hər cür şərait var. "Yeməkxanada səliqə-sahmana, təmizliyə və gigiyenik qaydalara xüsusi riayət edilir. Əgər görülən işlərin hər birinin sonunda insan amili dayanırsa, deməк ki, abad və təmiz mühitdə yaşamaq və qidalanmaq şəxsi heyətimizin haqqıdır. Əsgər yeməkxanasında təmizliyin təmin olunması hərbi hissədə ümumi fəaliyyətin mühüm tərkib hissəsidi. Bizim isə vətəndaş kimi, hərbi qulluqçu kimi, ən əsası ana kimi borcumuz əsgər balalarımıza, o cümlədən Vətənimizə xidmət etməkdir".

Aşpaz Mehrin Əlizadə şəxsi heyətin yüksək kalorili yeməklərlə təmin olunduğunu, qida rasionuna ət, yumurta, balıq məhsulları, mövsümə uyğun meyvə-tərəvəz, kompot və təbii şirələr olduğunu bildirir. Şəxsi heyətin düzgün və keyfiyyətli qidalanması ən vacib məsələlərdən biridir. Bunun üçün hərbi hissənin yeməkxanasında hər bir şərait yaradılıb. Hərbi hissəyə gətirilən təzə və keyfiyyətli ərzaq məhsulları soyuducu kameralarda saxlanılır. Şəxsi heyət üçün normaya uyğun olaraq gündə üç dəfə yemək hazırlanır. Menyuda milli mətbəximiz üstünlük təşkil edir. Xanım aşpazların qayğıkeş münasibəti sayəsində yeməklər ev yeməyindən heç də fərqlənmir".



Əsgərlər Əyyub Səlimzadə, Tarıyel Ovcuyev, İlkin Süleymanov, Rövşən Talıbov və Məhəmməd Mamedov yedikləri milli yeməklərin keyfiyyətindən razılıqlarını bildirdilər və ev yeməklərindən fərqlənmədiyini qeyd etdilər. "Xanım aşpazların bişirdiyi yeməklər dadlı və ləzizdir. Peşəkar və təcrübəli aşpazların sayəsində dadlı, keyfiyyətli və çoxçeşidli yeməklər yeyirik. Yeməklər o qədər çox və cürbəcür olur ki, onların hamısından bir pay yemək mümkünsüzdür. Aşpazlarımız üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlirlər. Biz əsgərlər də üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirmək, doğma torpaqlara dikilmiş bütün məhəbbətli gözlərə sevinc göz yaşı bəxş etmək istəyirik. Azərbaycan əsgəri Ali Baş Komandanın əmri ilə babalarımızın müqəddəs əmanəti, atalarımızın övladlarına yadigarı Vətən yolunda hünər göstərməyə, döyüşlərə atılmağa, xalqımıza sevinc bəxş etməyə həmişə hazırdı.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# Fransa-Xorvatiya finalda




Rusiyada təşkil olunan futbol üzrə Dünya Çempionatının ilk yarımfinal oyunu Fransa və Belçika komandaları arasında keçirildi. Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin eyni adlı stadionunda baş tutan oyun səbəbsiz yerə "erkən final" adlanmırdı. Mundial boyu hər iki komandanın inamlı təsir göstərməsi bu qarşılaşmaya marağın artmasına səbəb olmuşdu.

Fransa millisinin start heyəti Loris, Pavard, Varan, Umtiti, Hernandez, Kante, Poqba, Qrizmann, Mbappe, Matuidi, Jirudan ibarət idi.

Belçika millisinin ilk 11-liyində Kurtua, Aldervild, Kompani, Vertongen, Chadli, Dembele, Vitsel, Fellaini, De Bruyne, Eden Azar, Lukaku yer almışdılar.

Oyunu Uruqvaydan Andrea Cunha və köməkçiləri idarə edirdi. Qarşılıqlı hücumlar şəraitində keçən oyunda ilk hissə qolsuz başa çatdı. İkinci hissənin 51-ci dəqiqəsində Samuel Umtiti komanda yoldaşının ötürməsini başla qola çevirdi. Umtitinin vurduğu qol Fransanı üçüncü dəfə Dünya çempionatının final mərhələsinə yüksəlməsinə səbəb oldu. Oyunun ən yaxşısı qolun müəllifi olan Samuel Umtiti seçildi.

İkinci yarımfinal oyunu Rusiyanın paytaxtı Moskvada yerləşən "Lujniki" stadionunda Xorvatiya və İngiltərə millilәri arasında baş tutdu. "Pley-off" mərhələsində Danimarka və Rusiya komandalarını mübarizədən kənarlaşdıran Xorvatiya millisi İngiltərə millisinə qarşı çətin sınaq oyununa çıxmışdı.

Xorvatiya millisi oyuna Subaşiç, Vrsalko, Striniç, Vida, Modriç, Rakitiç, Brozoviç, Rebiç, Perişiç, Mandzukiç 11-liyi ilə başladı.

İngiltərə millisində əsas heyətdə Pikford, Uolker, Stouns, Maquayr, Trippyer, Yanq, Henderson, Dele Alli, Linqard, Sterlinq, Keyn oynayırdı.

İkinci yarımfinal oyununun baş hakimi türkiyəli Cüneyt Çakır idi. Oyunun 5-ci dəqiqəsində Trippyer cərimə zərbəsindən möhtəşəm qola imza atdı. Komandalar fasiləyə ingilislərin minimal üstünlüyü ilə yollandı. İkinci hissədə Xorvatiya millisi hesabı bərabərləşdirə bildi. 68-ci dəqiqədə İvan Perişiç fərqləndi. Oyunun əsas hissəsində qalibin adı müəyyənləşmədiyindən əlavə vaxt təyin olundu. Əlavə vaxtın ilk hissəsində də qapılara qol vurulmadı. İkinci əlavə olunmuş vaxtın 109-cu dəqiqəsində Mario Mandzukiç hesab arasındakı tarazlığı pozaraq Xorvatiya millisinin adını finala yazdı.

Beləliklə, mundialın finalçılarının adlarına aydınlıq gəldi. Fransa və Xorvatiya milliləri arasında keçiriləcək final oyunu iyulun 15-də "Lujniki" stadionunda baş tutacaq.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

# Postancyan Paşinyana qarşı: Qarabağda vəziyyət dəyişə bilərmi?

*Əvvəl Nikol Paşinyanı dəstəkləyən deputat hərbi hissənin qapısından qovulduğu üçün müxalif oldu*

Ermənistanın baş naziri postuna gələrək öz yerini bərkitməklə kifayətlənməyən Nikol Paşinyan nəinki köhnə rejimdən olanları, hətta "məxməri inqilab" zamanı onu dəstəkləyənləri belə uzaqlaşdırmaqla məşğuldur.

İşğal edilmiş Xocavənd rayonu ərazisində yerləşdirilən qanunsuz hərbi hissələrdən birinə gələrək buradakı vəziyyətlə tanış olmaq niyyətində olan keçmiş deputat və hazırda "Yerkir Tsirani" ("Ərik ölkəsi") fraksiyasının lideri olan Zaruhi Postancyan hərbi hissənin ərazisinə buraxılmayaraq qapıdan kobud şəkildə qovulub. Ona izah olununb ki, N.Paşinyan tərəfindən separatçı və qondarma rejimin müdafiə naziri Levon Mnasakanyana xüsusi tapşırıq verilib: "Yerevandan olan heç bir şəxs hərbi hissələri ziyarət edə və buradakı vəziyyətə "başını soxa bilməz".

Qeyd edək ki, Ermənistan Milli Məclisinin 2 dəfə deputatı olmuş, İrs fraksiyasının keçmiş üzvü Z.Postancyan məxməri inqilabı nəticəsində devrilmiş köhnə hərbi-siyasi rejimə qarşı daima qatı müxalif olması ilə seçilib, N.Paşinyanın təşkil etdiyi yürüş hərəkatına dəstək verib və onlara qarşı müxalif düşərgədə olmayıb.

Lakin Paşinyanın baş nazir postuna sahib olmasından sonra atdığı addımlar və Postancyan şəxsiyyətinə qarşı sərgilənən hörmətsizliklər səbəbindən (hərbi hissəyə buraxılmaması ucbatından) artıq o, Paşinyan hakimiyyətinə qarşı tənqidi fikirlər səsləndirməyə başlayıb.

Konkret olaraq iyulun 11-də günorta saatlarında Xocavənd rayonu ərazisində yerləşdirilən qanunsuz hərbi hissələrdən birinə gələn və buradakı vəziyyətlə tanış olmaq istəyən keçmiş deputat Z.Postancyan hərbi hissənin qapısından kobud şəkildə qovulduqdan sonra rejim haqqında sərt açıqlamalar verib və deyib ki, görün Qarabağdakı hərbi hissələrimizdə vəziyyət nə qədər acınacaqlıdır ki, bizləri ora buraxmırlar.

Keçmiş deputat bu açıqlaması ilə, həmçinin qondarma Dağlıq Qarabağ Respublikasındakı acınacaqlı hərbi-siyasi vəziyyətə işarə edib.

Bütün bu olanlar onu göstərir ki, Ermənistandan sonra mövcud hərbi-siyasi rejimin devrilmə növbəsi qondarma Dağlıq Qarabağ Respublikasındadır.

**İsa ELDAROĞLU,**
**hərbi jurnalist**
**Ehtiram AŞIRLI,**
**analitik-icmalçı**

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 10-da Ağdam rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Saymon Tiller və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun (YSPQ) rəhbəri polkovnik Vladimir Minarik keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru, Oqnyen Yoviç və YSPQ-nin nümayəndəsi polkovnik-leytenant Ralf Boşard aparıblar.

Gizir Abdullayev Ceyhun Hacıağa oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

İstefada olan baş gizir Əhmədov Yadulla Zəki oğluna 2006-cı ildə verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Baş redaktor | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | leytenant Günay TAĞIYEVA | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 452 Nüsxə 3525 |